

# İNKLÜZİV TƏHSİL

## VALİDEYNLƏR ÜÇÜN BƏLƏDÇİ

BAKI - 2020

Bu vəsait Avropa İttifaqının maliyyə dəstəyi ilə “Regional İnkişaf” İctimai Birliyi tərəfindən icra olunan “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi çərçivəsində tərcümə edilmiş və hazırlanmışdır. Vəsaitin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

Bu vəsaitin azərbaycan versiyası onlayn istifadəyə açıqdır (https://inkluzivtehsil.az/library).

# MÜNDƏRİCAT

Giriş ---------- 4

**İnklüziv təhsil nədir?** ---------- 5

İnklüziv təhsilin tərifi ---------- 5

Niyə inklüziv təhsil? ---------- 6

İnklüziv təhsilin hüquqi çərçivəsi ---------- 7

Əlilliyə fərqli baxış ---------- 12

Damğalamanın mənfi təsiri ---------- 13

**Valideynlər inklüziv təhsildə** ---------- 20

İnklüziv təhsildə valideynlərin rolu ---------- 20

İnklüziv təhsil dostluq üçün təməldir! ---------- 22

Təhsil müəssisəsinin idarə olunmasında valideynlərin rolu ---------- 26

Müəllim-valideyn əməkdaşlığı ---------- 27

Uşaq və ailə dəstək planı məktəblərdə inklüziyanın koordinasiyası və dəstəklənməsi metodu kimi ---------- 28

**Valideynlər inklüziv təhsilin təşviqatçısı kimi** ---------- 30

Səriştəli valideyn kimdir? ---------- 30

İnklüziv təhsili necə təşviq etməli? ---------- 32

**İnklüziv təhsildə valideyn təcrübələri** ---------- 35

# GİRİŞ

Təhsil insanlara bilik, bacarıq, dəyərlər verən bir proses olmaqla yanaşı həm də həyata hazırlıq mərhələsidir. Cəmiyyətin bərabərhüquqlü üzvünə çevrilmək və hərtərəfli inkişaf etmək istəyən hər bir şəxsin təhsil alması vacibdir. Bu, eyni zamanda kimliyindən asılı olmayaraq hər bir vətəndaşın hüququdur. Hər kəs kimi əlilliyi olan şəxslər də təhsil, daha doğrusu keyfiyyətli inklüziv təhsil almaq hüququna malikdir. İnklüziv təhsilin keyfiyyətini təmin edən bir çox amillər vardır ki, bunlardan da biri valideynlərin təhsil prosesində fəal iştirakı və təhsil müəssisəsi ilə yaxından əməkdaşlıq etməsidir. Lakin bir çox hallarda valideynlər müəyyən səbəblərdən – laqeydlik, səriştəsizlik, məlumatsızlıq və s. kimi səbəblərdən bu prosesdən kənarda qalır və təhsilə öz töhfələrini verə bilmirlər. Bunun mənfi nəticələriylə isə övladlarımız üzləşməli olur. Məhz bunu nəzərə alaraq Avropa İttifaqının maliyyə dəstəyi ilə “Regional İnkişaf” İctimai Birliyi (RİİB) tərəfindən həyata keçirilən “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi çərçivəsində valideynləri inklüziv təhsil və əlillik məsələləri ilə bağlı məlumatlandırmaq üçün silsilə tədbirlərin icrası və maarifləndirici materialların hazırlanması nəzərdə tutulmuşdur. Oxuduğunuz bu kitabça sizi inklüziv təhsilin mahiyyəti ilə yaxından tanış etməklə yanaşı, əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb olunması işində sizə bələdçilik edəcək. Kitabçada eyni zamanda əlilliyi olan uşaqların valideynlərinin real həyat təcrübəsinə əsaslanan qeydlər də öz əksini tapıb. Bu qeydlər bir daha onu göstərir ki, uşaqların, ələlxüsus əlilliyi olan uşaqların həyatda özlərinə layiqli yer tapmasında valideynlərin çox böyük rolu vardır. Ümid edirik bu kitabça faydalı maarifləndirici vəsait kimi ölkəmizdə inklüziv təhsilin inkişafına dəstək olmaq işində valideynləri həvəsləndirəcək və onlara yaxşı bələdçilik edəcək.

# İNKLÜZİV TƏHSİL NƏDİR?

## İnklüziv təhsilin tərifi

İnklüziv təhsil əlilliyi olan və olmayan, zəngin və yoxsul uşaqların, eləcə də cinsi, etnik, dini və mədəni statusundan asılı olmayaraq bütün uşaqların öz icmaları daxilində onların potensialını aşkara çıxara bilən məktəblərdə təhsil almasıdır.

**(UNICEF, 2013)**

Tərifdən də göründüyü kimi inklüziv təhsil sadəcə əlilliyi olan uşaqların təhsili deyil. İnklüziv təhsil uşaqların birgə təhsil almasına mane olan amillərin aradan qaldırılması və bütün uşaqların bərabər surətdə keyfiyyətli təhsil almasısdır. Keyfiyyətli inklüziv təhsilin göstəricilərindən biri uşaqların məhz yaşadıqları icmada (ərazidə) yerləşən ümumtəhsil məktəbində təhsil almasıdır. Bunun üçün məktəblərin infrastrukturunda lazımi uyğunlaşdırma və təkmilləşdirmə işləri aparmaq, müəllimlərin peşəkarlığını artırmaq, məktəbin tədris resursunu zənginləşdirmək və əlilliyi olan uşaqlar üçün lazımi dəstək təmin etmək və digər zəruri tədbirlər görmək lazımdır. Amma əlbətdə ki, inklüziv təhsilin keyfiyyətli olması üçün bu tədbirlər kifayət etmir. İnklüziv təhsilin yüksək səviyyədə tətbiqi məqsədilə təhsilə aid sənədlərin və təcrübənin təkmilləşməsi, eləcə də təhsil mədəniyyətinin dəyişməsi, mütərəqqi anlayışların ölkəmizin təhsil məkanında özünə yer tapması da vacib amillərdəndir.

# NİYƏ İNKLÜZİV TƏHSİL?

İnklüziv təhsil mühitində müəllim müxtəlif bacarıq və ehtiyacları olan uşaqların tələblərini qarşılamaq üçün çoxsaylı metod və resurslardan istifadə edir ki, bu da bütün uşaqların təlimdən faydalanmasına imkan yaradır. İnklüziv təhsil ancaq əlilliyi olan uşaqlar üçün deyil, inklüziv təhsil bütün uşaqlar üçündür.

## HAMI ÜÇÜN FAYDALIDIR

## İQTİSADİ SƏMƏRƏLİDİR

İnklüziv təhsil vasitəsilə cəmiyyətə uğurlu adaptasiya prosesi keçən əlilliyi olan uşaqların gələcəkdə əmək məşğulluğu imkanları artır. Belə olan halda müavinətlərdən asılılıq azalır, rifah halı yüksəlir və iqtisadi inkişafa töhfə verilmiş olur.

## FƏRDİ İNKİŞAFA YOL AÇIR

Təhsil uşaqlara ancaq savad vermir, həm də onların bir şəxsiyyət kimi inkişafını təmin edir, onlara həyati bacarıqlar aşılayır. İnklüziv təhsilə cəlb olunmuş əlilliyi olan uşaqlar da öz potensiallarını reallaşdırmaq üçün bilik və bacarıq əldə etməklə yanaşı müxtəlif sosial mühitə uyğunlaşmaq, öz fikrini səlis və inamlı ifadə etmək, sərbəst ünsiyyət qurmaq kimi bacarıqlar qazanır.

# İNKLÜZİV TƏHSİLİN HÜQUQİ ÇƏRÇİVƏSİ

İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır. Uşaqların bu hüququ milli və beynəlxalq sənədlərdə öz əksini tapıb. Beynəlxalq sənədlər ölkələri inklüziv təhsilin qurulmasına səsləməklə yanaşı, onların qarşısında bir sıra öhdəliklər qoyur. Azərbaycanın qanunvericilik sənədləri, ələlxüsus inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı inklüziv təhsilin təşəkkülü üçün maneəsiz mühit yaratmaqdır. Azərbaycan üçün aidiyyəti beynəlxalq və milli hüquqi sənədlər aşağıdakılardır:

- BMT-nin “İnsan hüquqları haqqında” Ümumi Bəyannaməsi, 1948
- BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyası, 1989
- BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyası, 2006
- Azərbaycan Respublikasının Konstitusiyası, 1995
- “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, 2009
- “2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”

## BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyası

Əlilliyi olan şəxslərin hüquq və ləyaqətini qorumaq məqsədi daşıyan BMT-nin beynəlxalq insan hüquqları sənədi, eyni zamanda yerli səviyyədə əlilliyi olan şəxslərin və onların ailələrinin həyatı üçün vacib bir vasitədir. Bu Konvensiya təhsil, hüquqlar, ailənin rolu, cəmiyyətə inteqrasiya və məşğulluq kimi məsələlərə toxunur.

**Maddə 24 - İnklüziv təhsil**

“Konvensiyaya tərəf olan dövlətlər əlilliyi olan şəxslərin təhsil hüququnu tanıyır. İştirakçı dövlətlər bu hüququ ayrı-seçkilik olmadan və bərabər imkanlar əsasında həyata keçirmək üçün bütün səviyyələrdə və ömürboyu inklüziv təhsil sistemini təmin edirlər.”

# İNKLÜZİV TƏHSİL NƏDİR?

# İNKLÜZİV TƏHSİL NƏ DEYİL?

**1**

...təhsil sisteminin geniş spektrli insanlara daha əlverişli, rahat və faydalı olması üçün təhsil müəssisələrində və təhsil sistemində aparılan fasiləsiz təkmilləşmə prosesidir.

...qısa vaxt çərçivəsində icra edilən və başa çatdırıla bilən bir dəfəlik layihə deyil.

**2**

...müxtəlif qruplardan olan təhsilalanların ehtiyaclarını qarşılaya bilməsi üçün təhsil ənənələrinin, təhsil siyasətinin və təcrübəsinin yenidən formalaşdırılmasıdır.

...sadəcə ümumtəhsil mühitində əlilliyi olan təhsilalanlar üçün təhsilin inkişaf etdirilməsinə yönəlmir.

**3**

...təhsil sisteminin istənilən təhsilalanın ehtiyaclarına uyğunlaşması üçün dəyişdirilə bilməsini nəzərdə tutur

...təhsil sistemini dəyişmədən təhsilalanın ona daha rahat uyğunlaşması üçün təhsilalanı dəyişmək deyil.

**4**

...fərqli situasiyalarda təhsilalanların kənarda qalmasına səbəb olan əngəlləri müəyyən etmək və aradan qaldırmaq üçün göstərilən davamlı səydir.

...istənilən vəziyyətdə istifadə edilə biləcək tədbirlər alqoritminə əməl edilməsinə əsaslanmır.

**5**

...təhsilalanların təhsilə, təlim prosesində iştirakına, akademik və sosial uğuruna mane olan əngəllərin müəyyən edilməsi və aradan qaldırılmasını nəzərdə tutur.

...sadəcə təhsilalanların məktəbə və ya sinif otaqlarına daxil ola bilməsinə kömək etməyə yönəlmir.

**6**

....bütün maraqlı tərəflərin: müəllimlər, təhsilalanlar, valideynlər, icma üzvləri, dövlət siyasətinə məsul şəxslər və yerli rəhbərlərin iştirak etməli olduğu bir prosesdir.

...sadəcə ekspertlər və ya təhsil işçiləri tərəfindən icra edilə biləcək bir layihə deyil.

**7**

...formal təhsil sistemindən kənarda, habelə formal məktəb mühitlərində, yəni qeyri-formal, icma əsaslı və s. təhsil mühitlərində baş verə bilər və azyaşlı uşaqlardan tutmuş yaşlılara qədər bütün təhsilalanları əhatə edə bilər.

...sadəcə məktəblərdə baş verən bir proses deyil.

# HÜQUQ VƏ VƏZİFƏLƏR

## Uşaqların hüquq və vəzifələri

Təhsil haqqında Azərbaycan Respublikasinin Qanununun 32-ci təhsilalanların hüquq və vəzifələri aşağıdakı kimi təsbit olunmuşdur. Bu maddəyə əsasən bütün təhsil müəssisələrinin təhsilalanları və məzunları bərabər hüquqlara malikdirlər.

### Hüquqlar

- qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq;
- təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;
- dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;
- müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını və sinifdənkənar məşğuliyyəti seçmək;
- ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;
- təhsil müəssisəsinin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, kitabxanalardan və s.) istifadə etmək;
- müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;
- elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;
- fasiləsiz təhsil almaq;
- sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;
- müəyyən edilmiş qaydada təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq;

- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;
- dövlət orta ixtisas təhsili pilləsində, peşə təhsili və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq yalnız bir dəfə pulsuz təhsil almaq;
- dövlət və bələdiyyə ümumi təhsil peşə təhsili müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;
- təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;
- təhsil müəssisəsinin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;
- elmi-praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;
- "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## Vəzifələr

- dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;
- pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;
- dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;
- təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

# Valideynlərin hüquq və vəzifələri

Təhsil haqqında Azərbaycan Respublikasinin Qanununun 34-cü maddəsində valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri aşağıdakı kimi təsbit olunmuşdur:

## Hüquqlar

- yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək;
- təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;
- təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;
- təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## Vəzifələr

- övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;
- övladlarını (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

# ƏLİLLİYƏ FƏRQLİ BAXIŞ



Əlilliyi olan uşaqların inklüziv təhsildən lazımınca faydalana bilməsi üçün cəmiyyətimizdə əlillik anlayışına münasibət dəyişməlidir. Əlilliyin ənənəvi tibbi modeli fərdə köklənir, yəni məhdudiyyəti insanın özündə görür. Bu yanaşma əlilliyi olan insanların cəmiyyətə qaynayıb-qarışmasına mane olan ətraf mühit amillərini və əngəlləri nəzərə almır.

Bunun əksinə olaraq, əlilliyin sosial modeli məhdudiyyəti ətraf mühitdə, əlverişsiz şəraitdə insanların mənfi münasibətində görür. Bu yanaşmanı daha yaxşı anlamaq üçün "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyada verilmiş tərifə nəzər salaq. "Əlilliyi olan şəxslər müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı digərləri ilə bərabər əsasda cəmiyyətin həyatında tam və səmərəli iştiraka mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlardır."

Bu tərifdən də aydın olduğu kimi məhdudiyyəti olan bir şəxs yalnız maneələrlə qarşılaşdığı zaman əlilliyi olan şəxs hesab edilir. Başqa sözlə, əlilliyin olması maneələrin olub-olmaması ilə şərtlənir.

Maneə dedikdə yalnız fiziki maneələr nəzərdə tutulmur. Məlumdur ki, əlilliyi olan insanların cəmiyyətdə özlərinə yer tapmalarına əngəl olan amillərdən biri də onlara qarşı mənfi munasibətin, streotiplərin olmasıdır. İnsanların əlilliyi olan şəxslərə qəribə və yad münasibətlə baxması, onlardan kənar durmağa çalışması əlilliyi olan şəxslərə mənfi psixoloji təsir göstərir və onları cəmiyyətdən soyumağa, uzaqlaşmağa məcbur edir. Buna görə də mənfi munasibətin aradan qaldırılması üçün maarifləndirmə tədbirləri həyata keçirmək lazımdır.

Bu tədbirlərin əsas aparıcı qüvvələrindən biri valideynlər ola bilər və olmalıdır. Çünki təcrübə göstərir ki, əlilliyi olan şəxslərin, ələlxüsus əlilliyi olan uşaqların cəmiyyətdən kənar düşməsindən uşaqların özü qədər onların valideynləri də bir çox tərəfdən əziyyət çəkir. Bu hal valideynlərdə ruh düşkünlüyü yaradır ki, bu da həyat keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Odur ki, bu vəziyyətin dəyişməsi bir zərurətdir.

Ancaq valideynlər unutmamalıdır ki, bu işdə onlar yalnız deyil. Bu xoşməramlı işdə onları dəstəkləyən digər maraqlı tərəflər var. Bu maraqlı tərəflər əlil təşkilatları, xeyriyyə təşkilatları, təhsil müəssisələri, müstəqil ekspertlər və s. ola bilər. Əsas məsələ maraqlı tərəflər arasında səmərəli əməkdaşlıq qurmaq və onların fəaliyyətini koordinasiya etməkdir. Əməkdaşlıq fəaliyyətini qurmaq üçün isə valideynlər fərdi təşəbbüslər göstərə, yaxud valideyn assosiasiyaları vasitəsilə müəyyən təşəbbüslər irəli sürə bilərlər.

# DAMĞALANMANIN MƏNFİ TƏSİRİ



Uşağın sağlamlıq vəziyyətini və ya diaqnozunu bilmək ona məktəbdə lazımi dəstəyi almaq baxımından faydalıdır. Araşdırmalar göstərir ki, damğalama uşağın məktəb həyatına mənfi təsir edir. Çünki diaqnoz çox zaman ətraf mühitin və sosial proseslərin yaratdığı əngəlləri nəzərə almır. Əlilliyi olan uşağı onun tibbi diaqnozu əsasında damğaladıqda, bu, elə bir fikir formalaşdırır ki, eyni diaqnozlu uşaqların hamısına eyni dəstəyin təmin edilməsi kifayət edir. Əsas məsələlərdən biri budur ki, eyni diaqnoza malik iki uşaq bir-birindən fərqlənirlər. Bu səbəbdən də onlar fərqli dəstəyə ehtiyac duya bilərlər

Damğalama insanları o fikrə gətirir ki, şəxsin malik olduğu məhdudiyyət sabitdir və dəyişə bilməz. Bu isə insanın malik olduğu məhdudiyyətlə təsvir olun-masına gətirib çıxarır və məhdudiyyətlərin zamanla dəyişə biləcəyini nəzərə almır. Biz hamımız yaşlandıqca müəyyən məhdudiyyətlər qazana bilərik. Yəni məhdudiyyət nisbi və ötəri bir anlayışdır. Bundan başqa, damğalama şəxsin güclü cəhətlərini və istedadını nəzərə almır. Bütün uşaqlar düzgün həvəsləndirmə və dəstəklə məktəbdə iştirak edə, qarşılıqlı ünsiyyətdə ola, öyrənə və mühitə uyğunlaşa bilərlər. Şəxsin malik olduğu məhdudiyyətə görə damğalanması bizi onların qabiliyyəti, istedadı və istəklərindən yayındıra bilər. Damğalama uşağa qarşı gözləntilərin aşağı düşməsinə səbəb olur. Müəllimlərin uşağı həddən artıq qoruması da onu bezdirə və həvəsdən sala bilər. Damğalama belə bir fikrin yaranmasına səbəb olur ki, əlilliyi olan uşaqlar xüsusi metodlarla və xüsusi resurslarla öyrədilir. Bunun üçün isə əlilliyi olan uşaqlar öz həmyaşıdlarından ayrılaraq xüsusi siniflərdə təlimə cəlb olunmalıdırlar. Bu yanaşma sadəcə əlilliyi olan uşaqları təcrid etmir, həm də onları sosial bacarıqların inkişafı üçün zəruri olan birgə sinif məşğələlərindən məhrum edir, ən əsası isə əlilliyi olan uşaqlara qarşı qınaq yaradır. Bununla yanaşı, sinifdə uşaqlara fərdi dəstək göstərmək üçün köməkçi müəllimin, yaxud başqa mütəxəssisin olması sinifdə uşaqlar arasında qarşılıqlı ünsiyyətə və sosial təmasa mane olur. Sinifdə köməkçi müəllimin, yaxud mütəxəssisin olması o halda məqbul sayıla bilər ki, həmin şəxs tədrisin bütün uşaqlara uyğunlaşdırılmasına kömək etsin və onların sosiallaşmasına mane olmasın.

Damğalamanın əlilliyi olan uşaqlara mənfi təsirini ümumiləşdirərək, aşağıdakı qənaətə gəlmək olar:

- Ətraf mühitdəki və sosial proseslərdəki maneələri nəzərə almır;
- Tibbi diaqnozu eyni olan hər kəsə eyni dəstəyin göstərilməsi fikrinə gətirib çıxarır;
- Şəxsin malik olduğu əlilliyin sabit və dəyişməz bir xüsusiyyət olduğunu vurğulayır;
- İlk olaraq şəxsin əliliyini ön plana çəkir;
- Aqressiv münasibət və bullinqə yol açır.

# BULLİNQ NƏDİR?

Bullinq bir uşağın və ya bir qrup uşağın başqa bir uşağa qarşı bilərəkdən dəfələrlə nümayiş etdirdiyi qərəzli ve aqressiv davranış formasıdır. Bullinq özünü müxtəlif formalarda – uşaq barədə şayiələr yaymaqla, uşağa hədə-qorxu gəlməklə, uşağa qarşı fiziki güc tətbiq etməklə və ya şifahi təhqirlərə yol verməklə, uşağı ümumi qrupdan kanarlaşdıraraq ayrı-seçkilik salmaqla və ya uşağı birbaşa va ya dolayı incitmək üçün istənilən digər hərəkətlərə və ya əmalllərə yol verməklə özünü büruzə verə bilər.

Bullinq başqa mənfi davranış və xoşagəlməz əməllərdən 3 səciyyəvi xüsusiyyəti ilə fərqlənir:

1 qəsdən törətmə
2 təkrarlanma
3 güc bərabərsizliyi

# Uşağın bullinqə məruz qalmağının əlamətləri

1. Bədəndə kəsik və ya qançır kimi fiziki əlamətlər;
2. Məktəbə getmək yaxud sosial tədbirlərdə iştirak etmək həvəsinin olmaması;
3. Şəxsi əşyalarını tez-tez itirməsi və yoxa çıxması;
4. Özünü tənha hiss etməsi barədə şikayətlər;
5. Davranışında aşkar mənfi dəyişikliklər yaxud da bir qayda olaraq istifadə etdiyi marşrutdan və s. imtina etməsi;
6. Aqressivlik va ya düşməncəsinə davranış;
7. Tibbi səbəblər olmadan fiziki ağrılar hiss etməsi;
8. Başqalarına, məsələn bacı-qardaşına qarşı bullinq etməsi;
9. Təlim nailiyyətlərinin azalması və fikrini cəmləyə bilməməsi;
10. Əvvəllər narahat olmadığı məsələlər barədə şikayətlənməyə başlaması.

# Uşağı bullinq barədə açıq danışmağa necə sövq edə bilərəm?

Siz övladınızı məruz qaldığı neqativ hallar barədə danışmağa sövq etmək üçün aqressiv olmayan bütün imkanlardan sitifadə edə bilərsiz. Məsələn, birgə bullinq mövzusunda filmə yaxud televiziya proqramına baxdıqdan sonra bullinqə məruz qalan personajın hansı hislər keçirməsi barədə suallar verməklə onun bu məsələyə münasibətini öyrənə bilərsiniz.

# Uşağımın bullinqə məruz qaldığını bildikdə nə etməliyəm?

1. Övladınızı diqqətlə və səbirlə dinləyin. Açıq danışdığına görə ona təşəkkür edin və diqqətinə çatdırın ki, o, bunu etməklə düzgün və cəsarətli bir addım atıb.
2. Övladınızın danışdıqları sizi qorxutsa da onun hislərinə şəfqətlə və anlayışla yanaşın. Uşağınız qəzəbli olduğunuzu hiss etdikdə açıq danışmaqdan çəkinə bilər.
3. Övladınızı mühakimə etmədən və qınamadan dinləyin.
4. Suallar verərək problem və bullinq törədən uşaqlar haqqında daha ətraflı məlumat əldə edin.
5. Övladınızı əmin edin ki, siz birgə bu problemin həll yolunu tapacaqsınız. Bunun üçün müəllimə və rəhbərliyinə məlumat verilməli və həmin uşağı tapmaqla müvafiq tədbirlər görməlisiniz.
6. Bu müddət ərzində övladınızı və hadisələrin gedişini nəzarətdə saxlayın.
7. Yaranmış problemin övladınıza ciddi psixoloji təsir göstərdiyini hiss etdikdə uşaq psixoloquna müraciət edin.

# Övladıma bullinqə qarşı hansı qabaqlayıcı tədbirləri öyrədə bilərəm?

Uşaqlar artıq 3-4 yaşında onlara qarşı aqressiv münasibətə qarşı nə etməli olduqlarını bilməlidirlər. Bunun üçün siz bu tədbirləri görə bilərsiniz:

- Övladınızına bullinqin nə olduğunu öyrədin.
- Onu əmin edin ki, bullinq barədə məlumat verməyi cəsur və düzgün hərəkətdir.
- Heç kəsə qarşı bullinq etməməsini və bullinq törədən uşaq(lar)dan uzaq durmasını tövsiyə edin.
- Bullinqə məruz qalmaqdan narahat olan uşağınıza tək qalmamağı və ya böyüklərin nəzarətindən kənar yerlərdə olmamağı məsləhət görün.

# Bullinqə məruz qalan uşaqlara bu məsləhətləri verin

- Bullinq edən uşağın səni vurmasına və ya nəzarətdə saxlamasına icazə vermə. Təmkinli olmağa çalış. Onun üzünə baxaraq qətiyyətlə bildir ki, bunu etməsin. Yaxud heç bir reaksiya nümayiş etdirmədən və ya cavab vermədən həmin yeri tərk et (üzündəki təbəssüm onu daha sərt və hətta zorakı əməllərə təhrik edə bilər).

- Təhqir şifahi xarakter daşıdıqda, buna səthi yanaş və mübahisə etməkdən çəkin. Bullinq edən uşaqla mübahisə etmə, bu, onun daha da aqressiv olmasına və nəticədə vəziyyətin ağırlaşmasına gətirib çıxara bilər.
- Fiziki zorakılıq təhlükəsi yarandıqda, təhlükəsiz yer tapmağa çalış. Bullinq edən uşağı dayandır və özünü müdafiə et (bullinq edən uşağın əllərini tutub saxlamağa çalış). Bunu edə bilmirsənsə, həmin yerdən dərhal uzaqlaş və böyüklərdən kömək istə.
- Etibar etdiyin şəxslə bu barədə danış. Valideyninə və ya müəlliminə və yaxud qardaş-bacına, dostuna/rəfiqənə bu barədə danış, kömək axtar.

## Bullinqdən sonra övladımda özünəinam hissini necə bərpa edə bilərəm?

- Övladınızı ona müsbət təsir göstərən dostları/rəfiqələri ilə vaxt keçirməyə həvəsləndirin.
- Uşağınızı onun xarakterinin formalaşmasına və dostluq əlaqələrinin güclənməsinə şərait yaradan tədbirlərdə, idman və başqa fəaliyyət növlərində iştirak etməyə həvəsləndirin.
- Uşağınızı feal şəkildə dinləyin. Gün ərzində onunla bağlı baş vermiş müsbət hadisələr barədə suallar verməklə maraq göstərin və onun dediklerinə diqqət yetirin.
- Uşağınıza və onun bacarığına inam nümayiş etdirin. Eyni zamanda, onu gələcəkdə baş verə biləcək hər hansı bullinq halından müdafiə etmək üçün əlinizdən gələni əsirgəməyəcəyinizə əmin edin.

# VALİDEYNLƏR İNKÜZİV TƏHSİLDƏ

## İnklüziv təhsildə valideynlərin rolu



Hər şeydən əvvəl bunu qeyd etmək lazımdır ki, inklüziv təhsil məhz valideynlərin təşəbbüsü sayəsində yaranmağa başladı. Belə ki, ötən əsrin 50-ci illərində qaradərili valideynlərin tələbi əsasında ABŞ məhkəmələri qaradərili uşaqların ağdərili uşaqlarla birgə ümumtəhsil məktəblərində təhsil almasına dair ilkin qərarlar verdi. Bu hadisə ölkədə böyük sensasiya yaradaraq əlilliyi olan uşaqların valideynlərini də həvəsləndirdi və onlar da övladlarının xüsusi məktəblərdə deyil, ümumtəhsil məktəblərində təhsil alması üçün tələb irəli sürdülər və məqsədlərinə nail oldular.

İnklüziv təhsilinin təşəkkülü prosesində də valideynlərin rolu böyük olub. Aidiyyəti dövlət qurumları və təhsil müəssisələri inklüziv təhsili əsasən inzibati və nəzəri yöndən inkişaf etdirmək iqtidarındadır. Lakin təhsil işçiləri ilə yanaşı valideynlər də inklüziv təhsilin təcrübədə daha effektiv reallaşmasına təkan verən qüvvələrdir. Təhsil siyasətinin təkmilləşdirilməsi, məktəblərin inkişafı, icmanın məktəblərə dəstək göstərməyə təşviq edilməsi kimi məsələlərdə valideynlərin birbaşa iştirakı bir çox məsələləri həll edə bilər.

İnklüziv təhsildə ən maraqlı tərəf olan valideynlər uşaqların təhsil imkanlarının genişləndirilməsinə ciddi təsir göstərmək gücünə malikdir, çünki inklüziya prosesində maraqlı olan valideynlər öz səmimimiyyətləri ilə seçilir və daha fədakar çalışırlar. Bu prosesə sərf edilən vaxtın, qoyulan maddi və mənəvi sərmayənin daha səmərəli olması üçün valideynlər daha mütəşəkkil şəkildə fəaliyyət göstərməlidir. Bunu nəzərə alaraq bu vəsait valideynlərə inklüziya prosesində bələdçilik edən tövsiyələr təqdim edir.

Valideynlərin cəlb olunması inkluziv təhsil işini formlaşadırmağın əhəmiyyətli hissələrindən biridir. Dövlət siyasi və hüquqi yollarla, məktəblər və təhsil şöbələri öz siyasəti və gündəlik qərarları ilə inklüziv təhsilə dəstək verərkən, siz də valideyn kimi uşağınızın təhsilində vacib rol oynayırsınız.

Uşağınız  bağçaya gedənə qədər rəsmi təhsil prosesi başlamasa da, anadan olduğu gündən etibarən öyrənmə prosesi başlayır və siz bu prosesə rəhbərlik edirsiniz.

Unutmayın ki, bir valideyn kimi uşağınız üçün ən yaxşı olanı siz bilirsiniz. Buna görə də uşağınızın təhsilinə təsir edəcək qərarlarda sizin rolunuz əhəmiyyətlidir. Siz uşağınızın böyümə və öyrənmə prosesini müşahidə edirsiniz. Onların uğurlarına və qarşılaşdıqları çətiniklərə şahid olursunuz. Onların sevdikləri, sevmədikləri şeylər, güclü tərəfləri, istedadları haqqında öyrənirsiniz. Bu məlumatlar sizə uşağınızı necə öyrətməli olduğunuzu anlamaq üçün əhəmiyyətlidir. Bunlar həm də uşağınızın təhsilində iştirak edən peşəkarlar üçün də faydalı ola bilər. Siz oğlunuzun və ya qızınızın məktəbi ilə paylaşa biləcəyiniz çoxsaylı dəyərli məlumatlara sahibsiniz. Uşağınız haqqında bildiyiniz hər şeyi yazmağa başlaya bilərsiniz.

Paylaşmaq üçün vacib ola biləcək testlər, hesabatlar və yazışmaların siyahısı var. Məktəbdəki hər görüşdən əvvəl aşağıdakılarla bağlı qeydlər aparmaq istəyə bilərsiniz:

- uşağınızın sevdiyi və sevmədiyi şeylər
- uşağınızın güclü və zəif tərəfləri
- uşağınızın ünsiyyət tərzi
- sizin narahatlıqlarınız və suallarınız
- uşağınızın ümidləri və xəyalları
- uşağınızın gələcəyi ilə bağlı sizin ümid və xəyallarınız.

## İnklüziv təhsil dostluq üçün təməldir

Əlilliyi olan uşaqların və gənclərin valideynləri daima dostluq mövzusu ilə bağlı öz narahatlıqlarını bildirirlər. Valideynlər və müəllimlər dostluğu inkluzivliyin vacib bir elementi kimi qəbul edirlər. Adətən əlilliyi olmayan uşaqların valideynləri uşaqlarının dostluq münasibətlərini normal qəbul etmələrinə baxmayaraq, əlilliyi olan uşaqların və gənclərin valideynlərinin əksəriyyəti bu məsələdə narahatlıq keçirir.  Dostluq bir uşağın həyatında baş verəcək ən əlamətdar hadisələrdən biridir. Çox vaxt bu valideynlərin əlilliyi olan övladı üçün nail olmağa çalışdığı ən vacib məqsədlərdən biridir. Yalnız inklüzivlik uşaqlara kim olmaq və nə etmək istədikləri barədə seçim etmək üçün müxtəlif imkanlar təqdim edir. Qonşu məktəblərdəki inklüziv təhsil şagirdlərə məktəbdən kənarda da dostluq qurmağa,  digər uşaqlar və gənclər ilə görüşməyə imkan verir. İnklüziya dostluğa zəmanət vermir, ancaq fərqlilikləri qəbul etmək və münasibətləri müsbət istiqamətdə inkişaf etdirmək üçün bir zəmin yaradır.

İnklüziv icmanın bir hissəsi olan əlilliyi olan uşaqlar və yeniyetmələr dostluq etmə bacarıqlarını öyrənmək və tətbiq etmək üçün daha geniş imkanlara malikdirlər. Eləcə də yaşıdları ilə dostluq təcrübələri gənclərə özləri və sosial reallıqlar haqqında məlumatlılığı inkişaf etdirməyə kömək edir.

Təəccüblü deyil ki, müsbət mənada sosial əlaqələr və həmyaşıdları tərəfindən qəbul edilmə artdıqda, bütün şagirdlərin sosial bacarıqları və özünə hörmət hissinin formalaşmasında, keçid prosesi və ünsiyyət bacarıqlarında, dil və koqnitiv inkişafında irəliləmə müşahidə olunur. Əlilliyi olamayan uşaqlar və gənclər bildirirlər ki, əlilliyi olan şəxslərin yanında olmaq özünüdərk prosesini, ictimai şüuru və başqalarını olduğu kimi qəbul etməni təkmilləşdirmiş, insanlar arasındakı fərqliliklərdən qorxmaq hissini azaltmış, şəxsi prinsipləri və dostluqlarını inkişaf etdirməyə kömək etmişdir.

Valideynlər və müəllimlər qarşılıqlı əlaqələri təşviq edə və aşağıdakı müxtəlif yollarla şagidlər arasında dostluq yaratma imkanlarını dəstəkləyə bilərlər:

**Onlara yaşıdları ilə birlikdə olmağa şərait yaradın.** Ətrafımızda ortaq maraqları bölüşdüyümüz insanlar olmadan dostluq əlaqələri qura bilmərik. Uşaqlar və gənclər üçün bu adətən onların həmyaşıdları deməkdir.

**Ortaq maraqlar ətrafında əlaqəni təbliğ edin.** Uşaqlar və gənclər üçün sadəcə yaşıdlarının arasında olmaq yetərli deyil. Uğurlu əlaqələrin qurulması üçün ortaq maraqların olması əhəmiyyətlidir. Bu, bəzi şagirdlərin birlikdə səyahət üçün seçilməsi, uşaqların layihə üzərində işləmək üçün qruplaşması və ya sinif otağında həmyaşıd mentor təcrübəsindən istifadə etmək kimi asan yollarla əldə oluna bilər. Valideynlər digər uşaqları və gəncləri evlərinə dəvət edə və öz uşağını kəşfiyyatçı oğlanlar, bələdçi qızlar, istirahət klubları və komandaları və ya məktəbdənkənar klublar kimi sosial fəaliyyətlərə qoşulmasına təşviq edə bilər.

**Davamlılığı təşviq edin.** Dostluq münasibətlərinin inkişafı üçün bir-birimizlə əlaqələrimiz davamlı olmalıdır. İnklüziv siniflərdə davamlı münasibətlər üçün imkanlar yaradılır. Unutmayın ki, təcrid olunma imkanları uğurlu dostluq münasibətlərinin inkişafı üçün lazım olan davamlılığı təmin etmir. Bəzən insanlar davamlı əlaqə qurmazdan əvvəl, potensial dostları ilə vaxt keçirmək üçün bir neçə dəfə görüşmə fürsətininin olmasına ehtiyac duyur.

**Müxtəlif əlaqələr və təcrübələr imkanı yaradın.** Hər hansı bir şəxsin maraqlarını kəşf etməzdən əvvəl onunla müxtəlif fəaliyyətlərdə olmaq və təcrübələri bölüşmək əhəmiyyətli ola bilər. Müxtəlif təcrübələrin və əlaqə imkanlarının təsiri dostluq ehtimalını artıracaqdır.

**Dostluq əlaqələrinin inkişafına dəstək olun.** Dostluq əlaqələrinin inkişafı üçün davamlılığı və müxtəlif fürsətləri təmin etdikdən sonra, bizim hələ də daha artığına ehtiyacımız olduğunu görə bilərik. Valideynlər və müəllimlər şagirdlərin dostluq cəhdlərini həvəsləndirici sözlər deməklə, dostluq münasibətlərini müzakirə etməklə, uyğun davranışlar barədə təlimat verməklə və hislər haqqında danışmaqla təşviq edə bilərlər.

**Fərdi fərqliliklərə hörmət etməyi öyrədin və müsbət örnək göstərin.** Bütün şagirdlərdə hörmət, qayğıkeşlik, səbir və müsbət qarşılıqlı münasibətləri formalaşdırmaq əlimizdə olan ən təsirli vasitədir. Fərdi fərqliliklərə hörmət etməyi aşılamaq sinif tədris planımızın, uşaq və gənclərlə gündəlik söhbətlərimizin bir hissəsi ola bilər.

**Sosial bacarıqlar öyrədin.** Sosial bacarıqların açıq şəkildə tədrisi bəzi gənclərin daha səmərəli iştirakına şərait yarada bilər. Bununla yanaşı, bəzi uşaqlar və yeniyetmələr müəyyən sosial bacarıqları heç vaxt öyrənə bilmirlər və yaxud onların qəbul edilməyə, anlayışla qarşılanmağa ehtiyacı

olan “sabit” davranışları və üslubları vardır. Bu cür davranışlar, xüsusən həmyaşıdlar arasında fərqlilikləri anlayışla qarşılamanı təşviq etmək üçün səy göstərildikdə, dost tapmağa və bu dostluğu davam etdirməyə mane olmamalıdır. Uşaqlar və ya yeniyetmələr arasında fəal dostluq qurma bacarığı olmadıqda belə, onların həmyaşıdlarına və potensial dostlarına xitab edən keyfiyyətlərini və ya qabiliyyətlərini vurğulamaqla müsbət qarşılıqlı əlaqələri asanlaşdıra və dəstəkləyə bilərik.

**Həmyaşıdların dəstəyini təşviq edin.** Müəyyən bir uşağın həmyaşıdları bəzən bu uşağa dəstək olmağa çağırıla bilər. Bu sadəcə, iki uşağın birlikdə oynamaq və ya bir fəaliyyət üçün bir araya gəlməsini təklif etmək mənasını verir. Digər formada bu, hansısa bir şagirddən həssas olan başqa bir şagirdi axtarmağı istəmək mənasında da başa düşülə bilər.  Bu strategiya xüsusi təhsil ehtiyacları olan şagirdlərə fayda verə bilər, lakin tədqiqatlar göstərir ki, əlilliyi olan sinif yoldaşları üçün həmyaşıd tərbiyəçi və ya köməkçi kimi fəaliyyət göstərən şagirdlərin özlərinə də bu prosesin əhəmiyyətli dərəcədə faydası olur.

**Ehtiyac olduqda daha çox dəstək verin.** Dostluq əlaqələrini inkişaf etdirmək və ya mövcud əlaqələri davam etdirməyə kömək etmək üçün bəzən təşkilati və ya asanlaşdırıcı dəstəyə ehtiyac olur. Uyğun bir model kimi "dost çevrəsi" və ya fərdi dəstək şəbəkəsini göstərmək olar. Valideynlər və müəllimlər köməkçi və ya dəstək vermək istəyən bir qrup şəxsin müəyyənləşdirilməsinə ehtiyac duya bilər. Bundan başqa vaxt və məkan müəyyənləşdirməli və qarşılıqlı (ortaq) maraqlara əsaslanan fəaliyyətlər inkişaf etdirilməlidir.

# Təhsil müəssisəsinin idarə olunmasında valideynlərin rolu

Valideynlərin məktəblə əməkdaşlığı və onun idarə olunmasında iştirakı sadəcə hüquq deyil, bu həm də bir zərurətdir. Çünki bir uşağı ən yaxşı tanıyan onun valideynləridir. Xüsusilə ibtidai sinifdə valideynlərin müəllimlə və zərurət yarandıqda məktəb psixoloqu ilə yaxın pozitiv münasibətdə olması vacibdir. Pozitiv münasibət dedikdə valideynlərin müəllimlərə dəstəkverici münasibət göstərməsi, yaranmış çətinliklər zamanı onu qınamadan problemlərin birgə həllinə cəhd etmək nəzərdə tutulur. Valideyn-müəllim-şagird üçbucağında xoş münasibətlərin olması təhsilin keyfiyyətinə müsbət təsir göstərir.

Həmçinin valideynlər icma üzvlərini ianə və bəxşiş verməyə təşviq etməklə məktəbin (bağçanın) lazımi maddi-texniki resurslarla təmin edilməsinə töhfə verə bilərlər. Bundan başqa təhsil müəssisələrinin idarə olunmasında iştirakçılıq da sosial nəzarətin həyata keçirilməsi və təhsil müəssisələrinin özünütənzimləməsi baxımından da önəmlidir. Lakin məktəbin (bağçanın) idarəolunmasında iştirakçılıq qətiyyən proseslərə lazımsız müdaxilə olmamalıdır. Fərdi şəkildə yaxud valideyn-müəllim assosiasiyası vasitəsilə məktəbin inzibati idarəetməsində və sosial fəaliyyətində iştirak məktəb rəhbərliyi ilə razılaşdırılmış qaydada həyata keçirilməlidir.

# Müəllim-valideyn əməkdaşlığı

Təhsilin keyfiyyətinə təsir göstərən mühüm amillərdən biri də müəllim-valideyn əməkdaşlığıdır. Bu əməkdaşlıq əlilliyi olan uşaqların təhsili üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki təlim-tərbiyə və inkişaf prosesi sadəcə məktəbdə baş vermir. Bu proses fasiləsiz olaraq istənilən mühitdə davam edir. Uşaqlar vaxtlarının əksər hissəsini daha çox məktəbdə (yaxud bağçada) və evdə keçirdiyindən bu iki mühit arasında keyfiyyət baxımından uyğunluğun olması uşağın sabit psixo-emosional inkişafında və yaxşı təhsil almasında mühüm rol oynayır. İki mühit arasında uyğunluğun təşkil edilməsi üçün həmin mühitlərdə, yəni məktəb və evdə uşağın təlim-tərbiyəsinə məsuliyyət daşıyan tərəflərin – müəllim və valideynlərin yaxından əməkdaşlıq etməsi vacibdir.

Müəllim-valideyn əməkdaşlığı müəllimlə valideynlər arasında sadə ünsiyyət deyil. Bu cür ünsiyyət hər halda təbii olaraq baş tutur. Əməkdaşlıq valideyn-müəllim assosiasiyası, yaxud məktəb icması çərçivəsində qurulan formal münasibət də deyil. Əməkdaşlıq müəllimlə valideynin ümumi ünsiyyətindən və münasibətindən daha geniş bir anlayışı ehtiva edir və keyfiyyət baxımından fərqlənir. Keyfiyyətin təmin olunması isə aşağıdakı bəzi amillərlə şərtlənir:

qarşılıqlı anlaşma, yardım və hörmət



tərəflərin vəzifə və öhdəliklərini müəyyən etmək

vahid məqsədə xidmət

şagirdin təlim, tərbiyə və inkişafına töhfə vermək və s.

Nəzərə almaq lazımdır ki, şagirdlərin yaxşı təhsil alması ancaq müəllimdən asılı deyil. Təlim yanaşması və tədris metodikası nə qədər təsirli olsa da müəllimin təkbaşına onlarla uşağa keyfiyətli təlim verməkdə çətinliklərlə üzləşməsi labüddür. Bu işdə müəllimə anlayış göstərmək və dəstək olmaq vacibdir. Bu məqsədlə valideynlər sinifdənxaric və məktəbdənkənar tədbirlərlərin təşkilində müəllimə köməklik göstərə, məktəbin icma ilə əməkdaşlığına töhfə verə, hətta zəruri hallarda təlim prosesində belə müəllimə müəyyən dəstək göstərə bilərlər. Uğurlu müəllim-valideyn əməkdaşlığı müəllimlərdə motivasiya və öz peşəsinə rəğbət oyadır ki, bu da birbaşa şagirdlərin təhsilinə müsbət təsir göstərir.

## Uşaq və ailə dəstək planı məktəblərdə inklüziyanın koordinasiyası və dəstəklənməsi metodu kimi

Uşaq və ailə dəstək planı inklüziv məktəblərdə əsas maraqlı tərəflərə uşaqlar haqqında məlumat toplamaq, bu məlumatlar əsasında təlim hədəflərini müəyyən etmək və bu təlim hədəflərinə çatmaq üçün lazım gələn dəstək və vasitələri planlaşdırmağa kömək etmək üçün bir vasitədir. Uşaq və ailə dəstək planı icranı dəstəkləmək üçün monitorinq və planlama prosedurlarını müəyyən edir.

Uşaq və ailə dəstək planı əlilliyin sosial və ya bərabərhüquqlu əsaslı modeli zəminində hazırlanır. Bu o deməkdir ki, əsas diqqət müyəssərlik və iştirak çətinlikləri, habelə məktəb icmasından başlıca maraqlı tərəflərin uşaqların üzləşdiyi bu çətinlikləri aradan qaldırmaq üçün nələr edə biləcəyinə istiqamətlənir. Belə ki, burada diqqət mövcud təhsil sisteminə uyğunlaşdırmaq üçün uşağı necə dəyişmək lazım gəldiyinə yönəldilmir.

## Uşaq və ailə dəstək planının hazırlanmasına kimlər cəlb edilməlidir

Uşaq və ailə dəstək planının hazırlanması prosesi bütün maraqlı tərəflərin qarşılıqlı səyi çərçivəsində həyata keçirilməlidir. Proses əvvəlcədən təyin olunmuş fasilitator (sosial işçi, təhsil məsləhətçisi, Psixoloji-tibbi-pedaqoji komissiyanın üzvü və ya xüsusi təhsil işçisi) tərəfindən başlanıla və asanlaşdırıla bilər. Planlama prosesində ən önəmli maraqlı tərəflər uşaq və onun ailəsidir. Fasilitator yalnız onların səsini eşitməklə qənaətlənməməli, həmçinin uşaq və onun ailəsinin planlama prosesinin hər addımında iştirakını təmin etməlidir. Bura uşaq və onun valideynlərinin bütün iclas və görüşlərə dəvət edilməsi, uşaq və valideynlərinə anlaşıqlı şəkildə olmaqla məlumatların təmin edilməsi, onların dinlənməsi, eləcə də onların gözləntiləri, prioritetləri və narahatlıqlarına hörmətlə yanaşılması daxildir. Qardaş və bacıları da dinləmək çox əhəmiyyətlidir. Uşaq adətən bacı və qardaşları ilə çox vaxt keçirir. Onlar uşaq haqqında xüsusi məlumatları təmin edə bilər və onların dəstəklənməsi, xüsusilə sosial biliklərin əldə edilməsində çox mühüm rol oynayırlar.

Məktəbdəki iştirakçılara sinif müəllimi, fənn müəllimləri, direktor, məktəb psixoloqu və uşağın dostları daxildir. Uşaq bir təhsil səviyyəsindən digərinə keçid etdiyi təqdirdə (məsələn, baxçadan ibtidai məktəbə və ya ibtidai sinifdən orta təhsil səviyyəsinə) hər iki məktəbin müəlliminin bu prosesə cəlb edilməsi işlərin gedişatına yardımçı ola bilər. Uşağın dostlarını da dinləmək vacibdir. Onlar uşağın arzuları, narahatlıqları və sosial vəziyyətinə dair xüsusi məlumatları təmin edə bilər. Bu komandaya zorbalıq (bullinq) kimi halları aşkar etməyə kömək edir. Dostlar evdə və məktəbdə sosial dəstəyin təmin edilməsində mühüm rol oynaya bilər.

İmkan daxilində xüsusi pedaqoqlar, terapevtlər və sosial işçilər planlama prosesinə cəlb edilməlidir. Xüsusi pedaqoqlara xüsusi məktəb müəllimləri, jest dili tərcüməçisi və Brayl mütəxəssisi daxildir. Terapevtlər loqoped, erqoterapevt və ya fizioterapevt ola bilər. Xüsusi pedaqoqlar və terapevtlər öyrənməni dəstəkləmək üçün ehtiyacları qiymətləndirməyə, müvafiq hədəfləri müəyyən etməyə və bu hədəflərə nail olmaq üçün strategiyaların təklif edilməsinə yardım edə bilər. Sosial işçilər mövcud resursların bölüşdürülməsi sxeminin qurulması və təmin edilməsi, müxtəlif maraqlı tərəflərin əlaqələndirilməsi, ailə üzvlərindən məlumatların toplanması və ümumi mənzərənin yaradılmasında dəstək ola bilər.

# VALİDEYNLƏR İNKLÜZİV TƏHSİLİN TƏŞVİQATÇISI KİMİ

## Səriştəli valideyn kimdir?

Valideynlik anlayışı sadəcə uşaqla bioloji və emosional yaxınlıqla məhdudlaşmır. Valideynlik övlad və cəmiyyət qarşısında mənəvi məsuliyyət və öhdəliklərin məcmusudur. Dolğun şəxsiyyətə malik valideynlər mütləq nəzərə almalıdırlar ki, onlar öz övladlarını yalnız öz ailələri üçün deyil, bütöv bir cəmiyyət üçün yetişdirməyə borcludurlar. Bu isə valideynlərdən daha böyük səriştə tələb edir.

Əlilliyi olan uşaqların valideynləri də yaranmış vəziyyətə görə qətiyyən bədbinliyə qapılmamalıdırlar. Çünki əlilliyin olub-olmamasından asılı olmayaraq bütün uşaqlar fərqli və unikaldır. Onların hər birinin özünəxas keyfiyyəti, ehtiyacı və marağı var. Övladlarını tərbiyə edərkən valideynlər bu amili mütləq nəzərə almalıdırlar. Uşağın hərtərəfli inkişaf əmsalı onun maraq və ehtiyaclarının nəzərə alınması ilə düz mütənasibdir.

Valideynlər bütün vasitələrdən istifadə edərək valideynlik bacarıqlarını artırmaqla övladlarını cəmiyyətə faydalı şəxsiyyət kimi yetişdirə bilərlər. Valideynlik səriştəsinin artırılması həm də o zərurətdən irəli gəlir ki, cəmiyyət daim inkişaf edir, ictimai münasibətlərdə daim yeni dəyərlər formalaşır və bu dəyərlər texnologiya və internet sayəsində geniş areala yayılaraq böyüməkdə olan nəslin təfəkkürünə hakim kəsilir, onun dünya görüşünü formalaşdırır. Belə olan halda valideynlər dövrün tələblərinə hazır olmalı, tərbiyə prosesini ənənəvi qaydada aparmağa israr etməməli, fundamental əxlaq qaydalarına zidd olmayan yeni dəyər və anlayışlara müsbət münasibət göstərləməlidirlər. Müasir dünya görüşlü bir valideyn kimi  formalaşmaq üçün isə indi daha geniş vasitə və imkanlar var.

Əlilliyi olan uşaqların valideynlərinə xas olmalı olan keyfiyyətlərdən biri qısa zamanda kompleksdən azad olmaq və psixoloji baryeri aşmaqdır. Əlilliyi olan övlada görə valideynlərin psixoloji diskomfort yaşaması normaldır. Sirr deyil ki, hələ də cəmiyyətimizdə əlilliyi olan şəxslərə qarşı soyuq münsibət var. Belə olan halda valideynlərin və övladlarının narahatlıq keçirməsi normaldır. Lakin daim belə narahatlıqla yaşamaq məqbul deyil. Bu, keyfiyyətli həyat tərzinin göstəricilərindən olan psixo-emosional rahatlığı pozur. Bu səbəbdən qısa zamanda narahatlıq və təşviş doğuran hallardan yaxa qurtarmaq lazımdır. Bunun üçün isə psixoloq xidmətlərindən istifadə etməkdən çəkinməməli, əlilliklə bağlı müxtəlif mənbələrə müraciət etməli və oxşar təcrübəyə malik valideynlərlə fikir mübadiləsi aparmaq faydalı olardı.

Püxtələşmiş valideyn səriştələrindən biri də yaxın sosial çevrənin əlillik anlayışına olan mənfi münasibətini dəyişmək üçün təşəbbüs göstərmək, ictimai stiqmalarla mübarizə aparmaq əzmidir. Müşahidələr göstərir ki, cəmiyyətimizdə bu cür qətiyyətli valideynlər var və məhz onların təşəbbüskarlığı sayəsində əlillik məsələlərinə dair geniş maarifləndirmə işləri aparılmış, cəmiyyətdə müsbət dəyişiklik dinamikasının əsası qoyulmuşdur.

## İnklüziv təhsili necə təşviq etməli?

Məlum olduğu kimi Azərbaycanda inklüziv təhsil hələ ilkin inkişaf mərhələsindədir. Cəmiyyətdə, hətta təhsil işçiləri arasında inklüziv təhsilin lazımlı və səmərəli olmasına şübhə ilə yanaşanlar var. Bu yanaşma əsasən ondan irəli gəlir ki, inklüziv təhsilin mahiyyəti və onun tətbiqi mexanizmi tam aydın olmur və ona qarşı müqavimət yaranır. İnklüziv təhsilin geniş vüsət alması üçün maarifləndirmə və təşviqat işinin aparılmasına ehtiyac var. Böyük kütləni əhatə edən və inklüziv təhsildə maraqlı olan valideynlər bu işdə aparıcı qüvvəyə çevrilə bilər. Ancaq bu sahədə işərin sistemli və davamlı aparılması mütləqdir.

Təşviqat bir ideya və məqsədin həyata keçməsi üçün geniş kütləyə müəyyən yollarla nüfuz etmək və dəstək qazanmaq üçün ardıcıl və məqsədyönlü tədbirlər məcmusudur.

İnklüziv təhsil lehinə təşviqat aparmaq heç də çətin bir iş hesab edilməməlidir və müstəsna bacarıqlar tələb olunmur. Bunun üçün ilk növbədə inklüziv təhsilin mümkünlüyünə və əhəmiyyətinə qətiyyətlə inanmaq əsas şərtlərdəndir. Valideyn kimi inklüziv təhsildə müsbət təsirinizi artırmaq üçün aşağıdakı yanaşmaları nəzərə almağınız tövsiyə olunur:

**Əməkdaşlıq edin.** Təşviqat işini bir qrup insanla aparmaq daha çox səmərə vəd edir. İnklüziv təhsilin vacibliyini daha inamlı vurğulamaq üçün bir yaxud bir neçə şəxsin deyil, daha böyük kütlənin bu barədə təbliğat aparmasına ehtiyac var. Əlilliyi olan uşaqların valideynləri əlillik məsələləri ilə bağlı müəyyən təcrübəyə malikdir. İmkanları birləşdirərək mütəşəkkil təşviqat aparmaq məqsədilə digər valideynlərlə əlaqə qurun, onlarla ortaq problem və ehtiyacları müəyyənləşdirin, fikir mübadiləsi aparın və birgə işləmək üçün plan qurun.

**Planlı işləyin.** Pərakəndə fəaliyyət əksər hallarda nəticəsiz qalır. Təşəbbüs nə qədər xoşməramlı olsa da sistemli və məqsədyönlü tədbirlər görülməsə lazımi nəticə əldə etmək çətin olur. Əlbəttə fürsət olduğu halda əlaqədar tədbir və yığıncaqlarda inklüziv təhsilin vacibliyi, əlilliyi olan uşaqların təhsil hüququ və sosiallaşmaq ehtiyacını səsləndirmək təsirli olardı.

**Təşkilatlarla əlaqə qurun.** Yaşadığınız bölgədə (şəhər, rayon) fəaliyyət göstərən müvafiq təşkilatlarla əlaqə qurun. Bir çox bölgələrdə əlil təşkilatları yaxud əlilliyi olan insanların problemləri ilə məşğul olan qeyri-hökumət təşkilatları və dövlət qurumları var. Təşkilatla yaxın əlaqə qurmaq hər iki maraqlı tərəf (valideynlər və təşkilatlar) üçün faydalıdır. Valideynlərin öz istək və tələblərini aidiyyəti dövlət qurumlarına çatdırmaq üçün hüquqi statusu və nüfuzu olan təşkilatların yardımına ehtiyacı var. Bu təşkilatların da öz növbəsində sosial baza kimi valideynlərin dəstəyinə ehtiyacı var.

**Problemi yaxşı bilin.** Bir problemi həll etmək üçün onun yaranma səbəbləri və mümkün həll yollarını dəqiq araşdırmaq, çoxsaylı mənbələrə müraciət etmək, həll variantlarının tətbiqində israrlı olmaq və həllə nail olmaq üçün səbirli olmaq sivil mübarizə yolunun göstəriciləridir. Problemin real mahiyyətini aşkara çıxarmaq onun effektiv həll yollarını tapmağa da istiqamət verir. Məsələn, bir qrup insanın inklüziv təhsilə münasibəti müsbət deyilsə, bunun yalnız subyektiv deyil, həm də obyektiv səbəbi ola bilər. Yəni bir şəxs inklüziv təhsilə mənfi münasibət bəsləyirsə, bu, həmin şəxsin fərdi keyfiyyətlərindən irəli gəlmir. Ola bilsin ki, şəxsin inklüziv təhsilin mahiyyəti və əhəmiyyəti haqqında düzgün və ətraflı məlumat əldə etmək imkanı olmayıb və bu səbəbdən münasibəti yaxşı deyil. Belə olan halda şəxsi maarifləndirmək və tutarlı arqumentlərlə inandırmaq daha düzgün yanaşma olardı, nəinki onu qınamaq ya mübahisə etmək. Bu kimi situasiyalarda səbəbi bilmədən problemi həll etmək cəhdi uğursuz olur.

**Qərarvericilərlə münasibət qurun.** İctimai mahiyyət daşıyan, ümummilli yaxud regional əhəmiyyət kəsb edən məsələlərin həllində qərarverici qurum yaxud şəxslər əhəmiyyətli rola malikdir. Problemlə bağlı lazımi tədbirlərin görülməsi üçün aidiyyəti təşkilat və şəxslərə çıxış tapmaq, problemi davamlı surətdə, təkid və qətiyyətlə ancaq nəzakətli tərzdə onların nəzərinə çatdırmaq və sivil qaydada həll yolu tələb etmək daha demokratik çıxış yolu tapmağa imkan verir.

**Nüfuzlu şəxsiyyətlərlə münasibət qurun.** Cəmiyyətdə yüksək nüfuza malik insanların dili ilə problemi səsləndirmək daha geniş kütlənin diqqətini cəlb etmək üçün çox təsirli yoldur. Xüsusi statusu olan dövlət və ictimai xadimlər, siyasətçilər, incəsənət xadimləri və yüksək ehtiram göstərilən digər şəxsiyyətlərlə yaxın münasibət qurub onların ictimai təsir gücü vasitəsilə problemi aktuallaşdırmaq və həllə nail olmaq geniş istifadə olunan təsirli təşviqat alətidir.

**Mətbuatda və sosial şəbəkələrdə fəal olun.** Müasir dövrdə böyük insan kütləsi mediadan və sosial şəbəkələrdən çox geniş istifadə edir. Bu da fürsət yaradır ki, hər iki kanal vasitəsilə çoxsaylı insanla ünsiyyət qurulsun və kütləvi dəstək əldə edilsin.

**Səbirli olun.** Unutmayın ki, böyük və ali məqsədə nail olmaq böyük vaxt və zəhmət tələb edə bilər. Bunun üçün isə hökmən səbirli və təmkinli olmaq, hadisələrə soyuqqanlı yanaşmaq, aydın və real düşünmək, çətinliklər qarşısında ruhdan düşməmək, uşaqların xoşbəxt gələcəyi üçün bu gün mübarizə aparmaq lazımdır.

# İNKLÜZİV TƏHSİLDƏ VALİDEYN TƏCRÜBƏLƏRİ

## Şəfa Əliyeva (Cəlilabad rayonu)

Mənim üç övladımdan ikisi tələbədir. Kiçik övladım Əlinin 8 yaşı var. Onun əqli əlilliyi və nitq əlilliyi var. Onun əlilliyinin olmasını 3 yaşında hiss etməyə başladım. Dərhal həkimə müraciət etdim. Həkim müalicə ilə yanaşı övladımın cəmiyyətə adaptasiya etməyi də tövsiyə etdi.



*"Onların bir şəxsiyyət kimi inkişafı ancaq cəmiyyətdə mümkündür."*

Buna görə övladımı uşaq baxçasına qoydum və o, 6 yaşınadək bağçaya getdi. Övladımı bağçaya qoymaqda məqsədim o idi ki, o, öz həmyaşıdları arasında olsun, sosiallaşsın və inkişaf etsin. Bunun müsbət nəticəsini gördüm. Hazırda oğlum məktəblidir. 2-ci sinifdə oxumalı olduğu halda, əlilliyi ilə əlaqədar olaraq məktəbə bir il gec getdi, ancaq onu təhsildən kənarda qoymadım.

Mən ibtidai sinif müəllimiyəm və öz təcrübəmdə əlilliyi olan uşaqlarla rastlaşmışam, onlara təlim keçmişəm. Təhsil aldıqda əlilliyi olan uşaqların inkişaf etdiyinə özüm şahid olmuşam. Buna görə qərara gəldim ki, bir il övladımı qeyri-rəsmi də olsa məktəbə aparım ki, mühitə uyğunlaşsın. Qeyd edim ki, həkimlər Əliyə həm də hiperaktivlik diaqonozu da qoymuşdular. O, sinifdə öz hiperaktivliyi ilə təlim prosesinə mane olur, sinif yoldaşları ilə ünsiyyətə girməkdə çətinlik çəkir, onlarla anlaşa bilmirdi. Həmyaşıdları da onunla normal ünsiyyətə girə bilmədiklərindən onunla birgə vaxt keçirmək istəmirdilər. Bütün bunlara baxmayaraq mən qətiyyən məyus olmurdum və övladımın inkişafı üçün mübarizə aparırdım. Müəyyən müddətdən sonra mən onda irəliləyiş müşahidə etməyə başladım.

Əli artıq 1-ci sinifdə oxuyur. Mən bir valideyn kimi çox sevinirəm ki, zəhmətim nəticə verdi və mənim də övladım sentyabrın 15-də digər uşaqlarla bir sırada durdu və məktəbə daxil oldu. İndi Əlinin ətraf aləm haqqında anlayışı var, məktəbin nə olduğunu başa düşür. Məktəbə getməzdən əvvəl biz Əlini nəzarətsiz qoya bilmirdik. Ancaq indi o, məktəbdə öz sinif yoldaşları ilə birgə sərbəst hərəkət edir. Hətta məktəbdə rast gəldiyi maraqlı hadisələr haqqında öz fikrini bildirir.

Öz övladımın timsalında aydın şəkildə gördüm ki, əlilliyi olan uşaqları cəmiyyətdən kənarlaşdırmaq qətiyyən düzgün deyil. Onların bir şəxsiyyət kimi inkişafı ancaq cəmiyyətdə mümküdür. Onlar cəmiyyətdə nə qədər çox olsalar, bir o qədər inkişaf edərlər. Mən bir valideyn kimi çox şadam ki, övladımı cəmiyyətdən kənarlaşdırmadım, onun inkişafı və cəmiyyətin bir üzvü olması üçün çalışdım və çox müsbət nəticə əldə etdim. Fikrimcə, hər bir valideyn bu cür etməlidir. Əlillik qüsur deyil. Bu, uşaqların özünəməxsus fərqliliyidir. Biz buna görə utanmamalı, övladımızın gələcəyi üçün mübarizə aparmalı və bununla qürur duymalıyıq.

# Nigar Süleymanova (Şəki rayonu)



*"Baş verən kiçik bir dəyişiklik sənə yenidən davam eləməyə stimul verir."*

Autizm - kimisi bunu xəstəlik, kimisi əlillik, kimisi də ünsiyyət və sosial bacarıqların olmaması kimi başa düşür. Kim necə başa düşürsə, elə də qəbul edir. Amma mən autizmi insanın özünəməxsusluğu kimi başa düşürəm. Həyat təcrübəmə əsasən bilirəm ki, autizm spektr pozuntusu olan bir insan digər bütün insanlar kimi inkişaf edə bilər. Kənardan övladı haqqında deyilən sözlər, pıçıldaşmalar, narahatedici baxışlar ana və atanı məyus edir. Bir valideyn kimi bu hissləri keçirmişəm. Elə olursan ki, sırf cəmiyyət narahat olmasın deyə övladını evə həbs etməyə vadar olursan. Bəzən küsürsən, bəzən yorulursan, bəzən də ümidini itirirsən ki, düzəlməyəcək. Amma bir anlıq övladının gözlərinə baxırsan. O gözlər ki, səndən kömək, dəstək istəyir və səni mübarizəyə ruhlandırır. O an hər şey yadından çıxır. Baş verən kiçik bir dəyişiklik sənə yenidən davam eləməyə stimul verir.

Əvvəllər övladımı 9 yaşında, yəni vaxtından gec məktəbə qoymağı planlaşdırırdım. Sonra həkimin "Qoy öz həmyaşıdları ilə məktəbə getsin" sözü məni fikrimdən daşındırdı və oğlumu ümumtəhsil məktəbinə qoydum. İlk 5 ayı onu məktəbə çəkinərək aparırdım. Çünki yolda və məktəbdə ağlayırdı. Mən də düşünürdüm ki, əvvəl on nəfər bu barədə bilirdisə, indi yüz nəfər biləcək. Ancaq analıq şəfqəti bu narahatlığı da yenməyə mənə güc verdi.

Məktəbdən və müəllimdən gözlədiyim yalnız oğlumun dərsdə 4 saat oturmasını təmin etmək idi. Bu çətin və yorucu proses olsa da bacardıq. Bu hər birimizin –məktəb rəhbərliyi, müəllim, oğlum və mənim ortaq nailiyyətimiz idi. Bu inkişafın ilk mərhələsi idi.

Oğlum dərsdə oturmağı vərdiş etdikdən sonra bu hal bizim üçün adiləşdi. Bundan sonra biz onun öz həmyaşıdları kimi oxumağını, dinləməyini, dərsə cavab verməyini qarşıya məqsəd qoyduq və əlbəttə buna nail olduq. Mən daim araşdırırdım, müşahidə aparırdım, ən əsası isə oğlumla günlərlə, saatlarla məşğul oldum və gördüm ki, oğlum da başqa uşaqlar kimi materialı mənimsəyir.

Oğlum hələ də bəzi hallarda ağlayır, narahatlıq törədir, ancaq biz birlikdə yolun yarıdan çoxunu qət etmişik. O, hal-hazırda yazır, oxuyur, məsələ həll edir, hətta tapşırığı oxuyub anlayır və icra edir. O, öz müəlliməsinə çox bağlıdır.

Bəlkə də bu dediklərim kimin üçünsə maraqsız bir hadisə kimi görünə bilər. Mənim üçün isə bu, çox böyük qələbədir. Övladım artıq ətrafında onu sevən insanların fərqinə varır və onlarla qarşılıqlı ünsiyyətdə olur. İnanıram ki, bu qətiyyətimizlə bir bugünkü çətinlikləri arxada qoyacaq və daha böyük nailiyyətlər əldə edəcəyik.

## Mənzilə Rəhimova (Cəlilabad rayonu)

Qız övladımız dünyaya gəldikdən bir müddət sonra ona Kistoz fibroz diaqnozu qoyuldu. Bu diaqnozlu uşaqlar daim həkim müayinəsində olur və məhdud həyat tərzi keçirirlər. Onların boyu və çəkisi yaşıdlarından çox geri qalır, nitq problemləri olur, nəfəs almaqda çətinlik çəkir, buna görə də tez yorulurlar. Onlar yoldaşları kimi qaçıb oynaya bilmirlər. Əl barmaqları “baraban” effektlidir. Hər kəsə görə onlar bütün sağlam yaşıdlarından fərqlidirlər. Bu hal onların təhsil almasına potensial maneədir.



*“Mən siniflə dost olmağa qərar verdim...”*

Ancaq bu maneə məni qorxutmadı və mən onun öz həmyaşıdları kimi ümumtəhsil məktəbində təhsil alması üçün əlimdən gələni elədim.

Elladanın 6 yaşı olanda bütün etirazlara baxmayaraq mən onu Cəlilabad şəhər 1 nömrəli məktəbində Həsənova Dilşad müəllimənin sinfinə qeyd etdirdim. Ellada xəstəliyin təsiri ilə bütün ətrafdan hədsiz çəkinir, nitq problemindən utanaraq danışmağa ehtiyat edirdi. Bu vəziyyətdə olan uşağı məktəbə göndərdiyimə görə ilk aylarda məni qınayanlar çox oldu. Amma mən öz qərarımdan və seçimimdən razı idim. Dərs prosesində sinif müəllimi, evdə isə özüm Ellada ilə həm dərslərlə məşğul olduq, həm də çoxlu pedaqoji-psixoloji yönümlü söhbətlər apardıq. Uşaq sözləri düzgün tələffüz edə bilmədiyi üçün bəzən gecələr yuxuya gedənən qədər ağlayırdı! Bir necə dəfə evə ağlaya-ağlaya gəldi "Mənim barmaqlarım niyə başqa uşaqlarınkından fərqlidir? Uşaqlar barmaqlarıma baxıb sual verirlər mənə" deyə ağlayırdı. Mən siniflə dost olmağa qərar verdim. Sıx-sıx məktəbə gedib sinifdə uşaqlarla dostluq, yoldaşlıq, humanizm istiqamətli söhbətlər aparırdım. Baxmayaraq ki, işlədiyimə görə bu proses mənə o qədər də rahat olmurdu. İş, məktəb, ev və ən əsası Elladam! Onun cəmiyyətə adaptasiyası üçün daha çox insan görsün deyə rəhbərlikdən icazə alıb tez-tez çalışdığım ADPU-nun Cəlilabad filialına gətirirdim. Yoldaşlarımla, tələbələrimlə ünsiyyətdə olması üçün şərait yaradırdım. Daha çox insan, daha çox ünsiyyət həm xəstəliyini müəyyən müddətçün unutdurmağa kömək olurdu, həm sosiallaşma prosesinə əsaslı təsir göstərirdi.

İlk vaxtlarda sinifdə və məktəbdə keçirilən tədbirlərdən kənarda qalırdı. Bu prosesin Elladanın psixoloji durumuna mənfi təsirini açıq görürdüm. Ona görə müəllimi Dilşad xanımın köməyi ilə bütün tədbirlərdə kiçik həcmli çıxışlardan, şeirlərdən başlayaraq Elladanın nitqindən utanmaq problemini də aradan qaldırdıq. Ən əsası isə Ellada da mübariz ruh daha da yüksəlmişdi. Nitqini düzəltmək üçün daha çox kömək tələb etməyə

başlamışdı. Çətin tələffüz etdiyi sözlər üçün bir qeyd dəftəri ayırıb mənə yazdırırdı saatlarla olsa belə təkrar edirdik və öyrənənə qədər məşq edirdik.

Müəyyən müddət Elladanın dərsə davamiyyətində fasilə yarandı. Çünki xəstəlik şiddətləndi. Xəstəxana şəraitində olsa belə artıq dərslərdən ayrılmaq istəməyən bir Elladamız var idi bizim! Oxusu güclənsin deyə çoxlu hecalı nağıllar oxuyurdu! Ellada 2 ay məktəbdən uzaqlaşmasına baxmayaraq artıq sinfin ən qabaqcıl şagirdlərindən idi! Bu prosesdə artıq bütün ailə səfərbər olmuşdu! Ellada dərslərini artıq təkcə mənlə hazırlamırdı. "Nənə ilə oxumaq mənə maraqlıdır, çünki nənə mənim yaxın dostumdur" deyən bizim həssas körpəmiz. II sinifdə artıq əlaçı oldu. Və...beləcə illər keçdi...Yaşanan bütün ağır günlərə rəğmən, Ellada təhsil aldığı məktəbin ən qabaqcıl şagirdlərindən biri olaraq artıq VII sinifdə oxuyur. Əlaçıdır və bütün məktəbin sevimlisidir. Müəllimlərin balaca köməkçisi, ən nümunəvi şagird adını qazanmış bir yeniyetmədir. Bu gün Ellada qısa hekayələr yazır. Bu gün Ellada bayram tədbirlərinin proqramlarını hazırlayır. Elladamız müəllim olmaq arzusu ilə yaşayır, "Əgər sən müəllim olmasaydın və mənim müəllimim olmasaydı mən indiki Ellada ola bilməzdim" deyir. Qızımın bu qeydi ona həqiqətən dəlalət edir ki, əlilliyi olan övladlarımızın inklüziv təhsil vasitəsilə cəmiyyətə adaptasiya olunmasında valideynlərin rolu böyükdür. Bunu nəzərə alaraq biz valideynlər bu yolda qətiyyətli və əzmkar olmalıyıq.

.

# Fidan Bağırova (Quba rayonu)




*“Ancaq səriştəli sinif müəllimәsi ilə mənim əməkdaşlığım sayəsində Əli sinifdə oturmaq vərdişinə yiyələndi.”*

Mən şimal bölgəsinin ilk özəl psixoloji və nitq inkişaf mərkəzinin qurucusu və ən əsası da autizm sindromu olan Əlinin anasıyam. Autizmlə tanışlığım on ildən artıqdır. Həyatımın gənc vaxtlarından böyük bir sınaqla üz-üzə qaldım. Oğlum 2 yaşında ikən Rusiyada oğluma autizm sindromu diqanozu qoyuldu və danışmaq ehtimalının olmadığı deyildi. O gün həyatımda yeni bir mərhələ başladı.

Oğluma görə ixtisasımı dəyişdim. Rusiya, Türkiyə və Azərbaycanda autizmlə bağlı təlimlərə qatıldım. 6 il Rusiyada yaşadıqdan sonra Azərbaycana döndüm. Tək bir məqsədim var idi: əldə etdiyim bilik və bacarığımla əlilliyi olan uşaqlara və onların valideynlərinə yardım etmək.

Oğlumun Əlinin sosial bacarıqlarının və nitqinin inkişafı üçün fasiləsiz olaraq tədbirlər gördüm və bir gün onun ilk sözlərini eşitdim. Sevincimin həddi-hüdudu yox idi. Çünki zəhmətim bəhrə vermişdi. Müəyyən müddətdən sonra isə oğlum artıq danışmağa başladı. O, hətta özünəxidmət bacarıqlarına da yiyələnib.

Bununla belə onun ümumtəhsil məktəbində təhsil almasında çətinliklər yarandı. Ancaq səriştəli sinif müəllimәsi ilə mənim əməkdaşlığım sayəsində Əli sinifdə oturmaq vərdişinə yiyələndi. Sinif yoldaşları da Əliyə dəstək olur. Oğlum yazmağı və oxumağı normal səviyyədə bacarır. O, hətta autizmli uşaqlar arasında keçirilən velosiped yarışında qələbə qazanaraq 2-ci yerə layiq görülüb. Gənclər və İdman nazirinin müavini İntiqam Babayev tərəfindən Diplom və medala layiq görülüb.

Təlim prosesində şagird, müəllim və digər kadrların autizmi olan uşaqlara dəstək göstərməsinə ehtiyac var. Bu dəstək sadəcə təlimlə məhdudlaşmamalıdır. Belə ki, autizmli uşaqların qidalanmasına da xüsusi diqqət yetirilməlidir. Müəyyən qaydada və rejimdə qidanlanmadıqda onların səhhətində çətinliklər yarana bilər ki, bu da onların təhsilinə mənfi təsir göstərə bilər.

Autizmli uşaqların da parlaq gələcəyi var. Mən buna inanıram. Autizmli uşaqlar heç bir ayrı-seçkiliyə məruz qalmamalıdırlar. Onların da bilik səviyyəsinə uyğun yarışlar, müsabiqələr keçirilməlidir. Mənim oğlum da bilik müsabiqəsində iştirak etməyi çox istəyir, amma yaşıdlarından müəyyən qədər geri qaldığı üçün müsabiqələrə qatıla bilmir. Ancaq mən bilirəm ki, övladıma dəstək olmaq üçün bir çox imkanlar var. Belə ki, bir gün sinif müəllimi ilə belə bir ideyanı rallaşdırdıq: sinif səviyyəsində uşaqlar arasında bilik yarışı təşkil etdik. Əliyə də öz bilik səviyyəsinə uyğun tapşırıqlar verildi. O isə tapşırıqların öhdəsindən gələrək qalib oldu və ona verdiyimiz hədiyyəyə çox sevindi.

Bəziləri autizmi xəstəlik ya bacarıqsızlıq kimi görürlər. Ancaq autizm saf bir həyatdır. Buna görə biz valideynlər qətiyyən məyus olmamalıyıq. Əziz analar və atalar, bütün uşaqların bizim sevgimizə ehtiyacı var. Heç bir çətinlik bizi ruhdan salmamalı və biz övladlarımızla birgə addımlamalıyıq.

# Ramilə Rasimqızı (Bakı şəhəri)



*"Biz övladımızın öz həmyaşıdları ilə birgə ümumtəhsil məktəbində təhsil almasına dəstək olduq və birlikdə bütün maneələri aşdıq."*

Eşitmə və nitq qabiliyyəti zəif olan bir uşağın valideyni kimi ilk növbədə qarşımıza belə bir məqsəd qoyduq: biz çalışmalıyıq ki, qızımız Fatimənin nitqi inkişaf etsin, bizimlə, öz həmyaşıdları ilə sərbəst şəkildə danışa, müstəqil ünsiyyət qura bilsin, əvvəl uşaq bağçasına, bundan sonra ümumtəhsil məktəbinə və daha sonra ali məktəbə gedib mükəmməl təhsil alsın və cəmiyyətə faydalı şəxsiyyət kimi formalaşsın. Bəli, hazırda biz övladımızla birgə bu yolla addım-addım irəlilləyirik. Lakin getdiyimiz bu yol heç də asan və rahat deyil. Bununla belə dönüb ötən dövrlərə nəzər saldıqda əminliklə deyə bilərik ki, artıq əvvəlki kimi narahatlıq hissi keçirməyimizə elə də ciddi bir əsas yoxdur. Buna görə də biz qarşımıza qoyduğumuz məqsədə nail olmaq istiqamətində mübarizəmizi böyük inam və əzmlə davam etdiririk.

Allaha şükürlər olsun ki, qızım Fatimə ümumtəhsil məktəbində dördüncü sinfə gedir və orta səviyyədə oxuyur. Eyni zamanda o, hazırda inglis dilini də öyrənir. Fatimə məktəbdə yalnız təhsil almır, həm də digər həmyaşdıları ilə ünsiyyədə olmaqla sosiallaşır. Demək olar ki, onun heç bir kompleksi yoxdur, hamı ilə sərbəst şəkildə fikir mübadiləsi aparmağı və cəmiyyətdə öz yerini tutmağı bacarır. Təbii ki, bütün bu uğurların əldə olunmasında onunla mütəmadi olaraq məşğul olan loqoped, psixoloq və digər mütəxəssislərin böyük rolu olmuşdur.

Fatiməni ilk dəfə məktəbə aparanda demək olar ki, heç bir çətinlik yaşamadıq. Çünki, məktəbimizin rəhbəri olduqca humanist, qayğıkeş, səmimi və gözəl bir insandır. Yəqin elə buna görədir ki, o, sosial statusundan asılı olmayaraq bütün uşaqlara, o cümlədən sosial qayğıya ehtiyacı olanlara qarşı çox həssas münasibət bəsləyir. Təqdirəlayiq haldır ki, həmin məktəbin pedaqoji kollektivinin də böyük əksəriyyəti qeyd edilən bütün bu müsbət keyfiyyətlərə malikdirlər.

Bütün bunlara baxmayaraq digər məktəblərdə olduğu kimi həmin məktəbin də infrastrukturunun tam müyəssər olmaması və ixtisaslaşmış pedaqoji kadr baxımından çətinliklərinin olması xüsusi təhsil ehtiyacları olan uşaqların təhsilinin keyfiyyətinə mənfi təsir göstərir.

Hesab edirəm ki, ümumutəhsil məktəblərində inklüziv təhsilin geniş tətbiqi, eyni zamanda orada müyəssərliyin yaradılması, tədris kurikulumlarının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən yüksək ixtisaslı kadrlarla (korreksion pedaqoq, loqoped, psixoloq, sosial-pedaqoq və s), habelə standartlara uyğun dərsliklərlə, dərs vəsaitləri ilə təmin edilməsi qarşıda duran ən vacib vəzifələrdəndir.

Ancaq onu da qeyd etməliyəm ki, bütün bu çatışmazlıqlara baxmayaraq, biz valideyn olaraq övladımızın öz həmyaşıdları ilə birgə ümumtəhsil məktəbində təhsil almasına dəstək olduq və birlikdə bütün maneələri aşdıq.